

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 23 (23.435)

*6 fevral 2020-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Mövlud Çavuşoğlunun Türkiyə-Azərbaycan əlaqələrinin inkişafı üçün çox böyük xidmətlər göstərdiyini, onun Azərbaycanı ürəkdən sevən bir insan olduğunu və müxtəlif vəzifələrdə daim Azərbaycanı dəstəklədiyini, müdafiə etdiyini bildirib.

Dövlətimizin başçısı Mövlud Çavuşoğlunun Türkiyənin inkişafında da çox böyük xidmətləri, bu gün qardaş Türkiyənin dünya miqyasında güc mərkəzinə çevrilməsində xüsusi rolu olduğunu vurğulayaraq Azərbaycanda çox yaxşı tanındığını, sevildiyini, ölkəmizin, xalqımızın dostu, qardaşı kimi ona böyük hörmət göstərildiyini bildirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün bu xidmətlərini nəzərə alaraq Mövlud Çavuşoğlunu Azərbaycan dövlətinin yüksək ordeni – "Dostluq" ordeni ilə təltif edib.

Prezident İlham Əliyev "Dostluq" ordenini Mövlud Çavuşoğluna təqdim edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Qırğızıstan Respublikasının Xarici İşlər naziri Çingiz Aydarbekovu qəbul edib.



## Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada icbari tibbi sığortanın tətbiqinin təmin olunması və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Aşağıda qeyd olunan tibb müəssisələrinə publik hüquqi şəxs statusu verilsin:

- Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi;
- Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri;
- Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamda nəzərdə tutulan publik hüquqi şəxslərin Nizamnamələrini təsdiq etsin və 2020-ci il fevralın 1-dən fəaliyyətlərini təmin etsin.

3. Bu Sərəncamın 1-ci hissəsində göstərilən publik hüquqi şəxslərin göstərdikləri ödənişli tibbi xidmətlərdən daxil olan vəsaitin 50 faizi işçilərin əməkhaqlarına əlavələrin verilməsinə yönəldilsin.

4. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Vergi Xidməti və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 fevral 2020-ci il*

## "Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi" publik hüquqi şəxsin işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq "Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi" publik hüquqi şəxsin işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi" publik hüquqi şəxsin işçilərinin aylıq vəzifə maaşları 2020-ci il fevralın 1-dən 50 faiz artırılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 fevral 2020-ci il*

## Muxtar respublikamızda dövlət-sahibkar münasibətlərinin yaxşı nümunəsi var

*Sahibkarlığın inkişafı cəmiyyət həyatının ən mühüm istiqamətlərindəndir. Çünki bu inkişaf, sadəcə, biznes meyarları ilə ölçülmür. Sahibkarlıq inkişaf edirsə, ölkənin iqtisadi potensialı artır, potensial artırsa, ordumuz güclənir, ordu güclənirsə, dövlətin təhlükəsizliyi təmin olunur, nüfuzu yüksəlir, beynəlxalq müstəvidə dayaqları möhkəmlənir. Xalqımızın ümummilli lideri Heydər Əliyev deyirdi: **"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".** Həqiqətən, iqtisadi gücü olan ölkə bütün sahələrdə nailiyyətlər qazanır, elmi, təhsili, mədəniyyəti inkişaf edir. Ən əsası iqtisadi qüdrəti olan dövlət öz müstəqilliyini qoruyub saxlayır, inkişaf etdirir. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyevin **"Sahibkarların səmərəli işləməsi Azərbaycanın iqtisadi inkişafının təminedən amildir. Ona görə də biz sahibkarlığın inkişafına dövlət siyasətimiz kimi baxırıq"** fikirlərinin təsdiqi ölkəmizin bugünkü inkişafında daha aydın görünür.*

Təbii ki, dahi şəxsiyyətin sahibkarlığa bu cür yanaşması ölkəmizdə özəl sektorun formalaşmasına böyük təsir göstərmişdir. Bazar iqtisadiyyatına keçidin uğurla başa çatdırılması sahibkarlıq subyektlərinin sayının daha da artmasına gətirib çıxarmış, nəticədə, milli iqtisadiyyatda özəl sektorun payı xeyli yüksəlmişdir. Bu yüksəlişi təmin edən əsas meyarlardan biri də dövlətin özəl sektorun inkişafına göstərdiyi diqqət, qayğı və bu sahədə işgüzar mühitin yaradılmasıdır.



Sahibkarlığın inkişaf etdirilməsi Naxçıvan Muxtar Respublikasında da xüsusi diqqət yetirilən sahələrdəndir. Çünki Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarların cəmiyyətin inkişafındakı rolunu hər zaman yüksək qiymətləndirməsi məxsusi xarakter daşıyır. Ali Məclis Sədrinin aşağıdakı fikirlərini sahibkarlıq anlayışının ən mükəmməl tezisi kimi də dəyərləndirmək olar: ***"Sahibkarlar cəmiyyətin ən təşəbbüskar, elmi-texniki yenilikləri daha tez mənimsəyən və istehsalatda tətbiq edən sosial təbəqəsidir".***

Həqiqətən, sahibkarlar bütün dünyada cəmiyyətin ən təşəbbüskar təbəqəsi hesab olunur. Çünki onlar daim inkişaf etməyə, yeni təşəbbüslərlə çıxış etməyə həm meyilli, həm də məcburdurlar. Meyillidirlər ona görə ki, biznesdə stabil vəziyyət yoxdur, daim inkişaf etməlisən, əks halda, bazardan çıxmalı olacaqsan. Məcburdurlar ona görə ki, cəmiyyətin artan tələblərini təmin etməyin digər yolu, sadəcə olaraq, yoxdur. Bu artan tələblər isə təkcə bizim bildiklərimiz deyil, 5 il, 10 il bundan sonra istifadə (əşya, qida, xidmətlər və sair) edəcəklərimizdir. Bunları isə bizə innovativ ruhlu sahibkarlar çatdırırlar. Ən əsası isə sahibkarlar təkcə ənənəvi ehtiyacları ödəmir, həm də yaratdıqları yeniliklərlə cəmiyyəti arxasınca apara bilirlər. Əgər belə olmasaydı, insanlar hələ də ildən-ilə yeni funksiyalarla təmin olunan mobil telefonlar, avtomobillər, məişət əşyaları və sairlə tanış ola bilməyəcəkdi. Burada təbii olaraq maraqlı bir sual ortaya çıxır ki, bəs elm, təhsil bu prosesin hansı hissəsindədir? Cavab birdir: elm, təhsil istənilən yeniliyi bizə nəzəri olaraq verir. İstehsalat (yəni sahibkarların olduğu yer) isə bunu reallığa çevirir. Hətta bizneslə bağlı ədəbiyyatlarda belə bir məşhur deyim də var ki, güclü sahibkarlar elmi özü üçün "işlətməyi" bacarır və müasir dünyada bunun çox sayda nümunəsi var. Təsadüfi deyil ki, elm o zaman özünü doğruldur ki, o, cəmiyyət həyatında tətbiq olunsun, insanlara fayda versin. Məhz buna görə də Ali Məclis Sədrinin son illərdə muxtar respublikada elm və təhsilin inkişafı (xüsusilə yeni peşə təhsilli məktəblərin yaradılması, müvafiq ixtisasların hamiliyə verilməsi, elmi yeniliklərin istehsalatda tətbiqi və sair) sahəsində həyata keçirdiyi tədbirlər böyük mahiyyəti ilə seçilir. Paralel olaraq muxtar respublika rəhbərinin sahibkarlığın inkişafı sahəsində gördüyü işlər hər iki tərəfin qarşılıqlı fəaliyyətini uzlaşdırmaq baxımından böyük rol oynayır.

Vurğulamaq lazımdır ki, muxtar respublikamızda bütün sahələrin inkişafı diqqət mərkəzində saxlanılır, hər il müxtəlif qurum və təşkilatların illik hesabatları ilə bağlı tədbirlər keçirilir. Ancaq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin şəxsən rəhbərliyi ilə keçirilən elə müşavirə və görüşlər də var ki, onlar məxsusi əhəmiyyət daşıyır. Təhsil, idman, kənd təsərrüfatı kimi vacib sahələrə yanaşı, sahibkarlarla da hər il görüşlərin təşkili artıq ənənə halını alıb. Bu görüşlər ötən bir il ərzində sahibkarlığın inkişafı istiqamətində görülən işləri, muxtar respublika iqtisadiyyatında baş verən müsbət dəyişiklikləri yaxından öyrənmək baxımından əhəmiyyətlidir. Dövlət-sahibkar münasibətlərinin əyani göstəricisi olan belə görüşlər sahibkarlıqda yeni prioritetlərin müəyyənləşdirilməsi və müvafiq statistik göstəricilərlə tanış olmağa imkan verir.

✍ Səbuhi HƏSƏNOV

*Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri və sahibkarlardan ibarət nümayəndə heyəti də iştirak edib.*

## Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti konfransda iştirak edib



Tədbirdə "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru Anar Əsədullayev çıxış edib. Qeyd olunub ki, muxtar respublika iqtisadiyyatında həyata keçirilən sistemli tədbirlərin nəticəsində sahibkarlar üçün münbit şərait yaranmış, qəbul olunan dövlət proqramlarının icrası, həyata keçirilən kompleks islahatlar davamlı inkişafı təmin etmişdir. Muxtar respublikada kiçik və orta sahibkarlığın inkişafının iqtisadi siyasətin prioriteti olduğunu qeyd edən müəssisənin direktoru, ümumi daxili məhsulda özəl bölmənin payının artaraq 88 faizə çatdığını, məşğul əhalinin isə 84 faizə yaxınının özəl sektorda çalışdığını, sənaye məhsulunun 95, tikintidə görülən işlərin 85, kənd təsərrüfatının 98 faizinin, ticarət və ictimai iaşə xidmətinin 100 faizinin özəl bölmənin payına düşdüyünü diqqətə çatdırıb.

2019-cu ilin sonunda "Naxçıvan Duz İstehsalı" MMC-də yeni şaxtanın tikintisinə başlanıldığını, müasir istehsal sahəsinin qurulması nəticəsində müəssisənin fəaliyyətinin genişlənəcəyini, yeni iş yerlərinin açılacağını, Naxçıvan duzunun daha keyfiyyətli formada istehsal ediləcəyini və məhsulların ixrac potensialının artacağını qeyd edən Anar Əsədullayev Naxçıvan duzuna olan tələbatın günbəgün artdığını və Bərdə şəhərində müəssisənin bazasının yaradıldığını söyləyib. Çıxışda müəssisədə xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunduğunu, əvvəllər 8 çeşiddə məhsul istehsal edilirdisə, həyata keçirilmiş tədbirlər nəticəsində məhsul çeşidinin sayının 18-ə çatdırıldığı qeyd olunub.

Sonda "Naxçıvan Duz İstehsalı" MMC-nin icraçı direktoru Anar Əsədullayev muxtar respublika sahibkarları adından Prezident cənab İlham Əliyevə minnətdarlığını bildirib.

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti*

# 2020-ci il də sahibkarlarımız üçün uğurlu olacaq

*Öz yeni inkişaf dövrünü yaşayan Azərbaycan üçün uğurlarla dolu olan 2019-cu il də arxada qaldı. 2020-ci il bütün dünyanı narahat edən qlobal problemlərlə başlasa da, şükürlər olsun ki, bu çətinliklər ölkəmizin vətəndaşlarından çox kənardadır. Xalqımız, bütün dünyadakı həmvətənlərimiz 2020-ci ildə də sıx birləşib bir hədəf seçiblər: ölkəmizin hərtərəfli inkişafı, insanlarımızın rifahı və xoşbəxtliyi üçün daha da həmrəy olub, inamla çalışmaq!*

Vətənimizin hər bir guşəsində olduğu kimi, qədim Naxçıvanda da ötən ilin yaddaqalan təəssüratları yaşanmaqdadır. 2019-cu ilin təqvim vərəqlərinə bir-bir yenidən baxdıqda ötən illərdə iqtisadi, sosial-mədəni həyatda, beynəlxalq münasibətlərdə və ordu quruculuğunda əldə olunmuş nailiyyətlərin məntiqi davamı kimi çox sayda işlərin reallaşdırıldığının şahidi olmaqdayıq. Bir vaxtlar inanılması çox çətin olan layihələri artıq yaxşı mənimsəmiş naxçıvanlılar 2019-cu ildə də muxtar respublika iqtisadiyyatının daha da inkişafı üçün yeni güclə işlərinə davam etdilər. Nəticədə, artıq Naxçıvan Muxtar Respublikası, sadəcə, ölkəmizin inkişaf edən bir regionu kimi deyil, eyni zamanda Şərq-Qərb astanasında özünü mühüm cazibə mərkəzi kimi tanıtmağa başlayan, iqtisadi inkişafda, elm və mədəniyyət sahələrindəki nailiyyətlərlə getdikcə diqqətləri üzərinə çəkən məkana çevrilməkdədir. Müqayisə üçün uzağa getməyək. Bu gün dənizlərə çıxışı olan, quru, dəmir və ya hava yolları kəsişməsindəki bir sıra dövlətlərdə belə, iqtisadi böhran olduğu bir dövrdə 30 ilə yaxın bir zaman ərzində blokadaya alınmış Naxçıvan Muxtar Respublikasının əldə etdiyi iqtisadi və mədəni inkişaf səviyyəsi tanınmış analitikləri belə, yenidən düşünməyə vadar edir. Beləliklə, ötən il özünün 95 illik muxtariyyət zəfərini yaşayan Naxçıvan Muxtar Respublikasının ölkəmizin beynəlxalq imicinin yüksəlməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əhəmiyyətli rolu bir daha ortaya çıxaraq düşmənə gözdağına, dostlarımız üçün ən tutarlı arqumentə çevrildi.



İndi artıq "Naxçıvan" kəlməsi Azərbaycanı araşdıranların ən çox işlədilən açar sözü mənası kəsb etməkdədir. Rəsmi səfərlərə, beynəlxalq tədbirlərə və sadəcə, turizm səyahətlərinə gələn minlərlə əcnəbinin gözü ilə Naxçıvana baxdıqda burada hər şeyin onların gözlədiyindən də qat-qat artıq səviyyədə olduğunu görmək çox asandır. Bu qonaqlar indi bir zamanlar soyuq, qaranlıq qış gecələrinə məhkum edilmiş Naxçıvanın əvəzində gecələri gündüz kimi işıqlı diyarımızda, sanki öz evlərindəki kimi rahatlıqla gəzib-dolaşırlar. Zəngin tarixi və təbii sərvətləri ilə yanaşı, istehsal və sosial infrastrukturun tamamilə yenilənməsi, ekoloji mədəniyyətin ən dərin səviyyədə insan şüuruna hakim kəsilməsi, ictimai asayişdə dünyada analoquna rast gəlinməyən bir mədəni mühitin formalaşması və həssas qonaqpərvərlik kimi müsbət təəssüratları Naxçıvana səyahət edən istənilən qonaqdan eşitmək mümkündür.

Naxçıvanda insan inkişafı indeksi, rifah səviyyəsi yüksəldikcə əhali tələbatlarının ödənilməsi məqsədilə istehsal və xidmət sahələrində yeni layihələrin reallaşdırılmasına geniş imkanlar yaranır. Dövlətin sahibkarlığa göstərdiyi hərtərəfli dəstək, ailə təsərrüfatlarının sadə profildən çıxıb, istehsal və xidmətyönümlü çox geniş sahələrədək şaxələnməsi nəticəsində muxtar respublikanın istehlak bazarı ən müxtəlif yerli ərzaq və qeyri-ərzaq məhsulları ilə dolub daşıb. Muxtar respublikada istehsal olunan sənaye məhsulunun ümumi daxili məhsulda 27,6 faizlik bir paya sahib olması digər mühüm makroiqtisadi göstəricilər fonunda çox mühüm bir inkişaf nümunəsi kimi diqqəti cəlb edir.

İqtisadi fəallığın artmasında bazar iqtisadiyyatına xas olan işgüzarlığın əsas subyektlərindən olan sahibkarlığın inkişaf etməsi muxtar respublikada əldə olunmuş nailiyyətlərin əsas faktorlarındandır. Bu mənada, Naxçıvanda istehsal olunan sənaye məhsulunda özəl bölmənin payının 94 faizdən artıq olması və bu göstəricinin ölkəmizin digər iqtisadi rayonları ilə müqayisədə ən yüksək səviyyəni təşkil etməsini vurğulamaq yerinə düşər. Ümumi daxili məhsulda özəl bölmənin payının artması əhali gəlirlərinin də çoxalmasına müsbət təsir edən digər bir mühüm amildir. Ümumilikdə isə muxtar respublikada hər bir nəfərə düşən ümumi daxili məhsulun həcminin əvvəlki ilə nisbətən 1,6 faiz artaraq 6200 manatı (təxminən 3650 ABŞ dolları) ötməsini də mühüm bir keyfiyyət göstəricisi kimi qeyd etmək lazımdır. Belə ki, bu rəqəm dünyanın Misir, Ukrayna, Hindistan kimi bir sıra böyük dövlətlərinin əldə etdiyi səviyyədən üstün, Özbəkistan, Tacikistan və Qırğızıstan kimi keçmiş sovet respublikaları ilə müqayisədə isə dəfələrlə çoxdur.




Müasir Naxçıvan nəhəng quruculuq meydanını xatırladır. Burada kənd və xidmət mərkəzlərindən tutmuş yaşayış binalarına, Günəş Elektrik stansiyalarınadək, güclü nasos qurğularından içməli su xətlərindən soyuducu anbarlaradək inşa olunan hər bir obyekt, son nəticədə, əhalinin qonşu payından asılı olmadan rahat və firavan yaşayışı üçün nəzərdə tutulub. Beynəlxalq hava dəhlizi və mühüm tranzit yol üzərindəki Naxçıvanın istehsal imkanları çoxaldıqca onun xarici ticarət dövriyyəsi də müsbət saldo ilə sürətlə artmaqdadır. 2019-cu ilin yekunlarına əsasən 425 milyon 539 min ABŞ dollarından artıq həcmdə ixrac potensialı əldə etməsi muxtar respublikanın "Made in Azerbaijan" brendi altında ölkəmizdə həyata keçirilən qeyri-neft ixracına verdiyi mühüm töhfədir. Bütün bunlar isə möhkəm zəmin üzərində qurulmuş dövlət-sahibkar işbirliyinin nəticəsində mümkün olub.

Naxçıvan Muxtar Respublikasında sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafına xüsusi dövlət qayğısı vardır. Kiçik ailə təsərrüfatlarının böyüyüb gələcəkdə sahibkara çevrilməsi, onların tutduğu biznes profilləri üzrə yüksək dərəcədə ixtisaslaşıb rəqabətqabiliyyətli məhsullarla dünya bazarına çıxmasınadək keçən bütün yolda dövlətimiz sahibkarların yanında olur, hər cür maliyyə dəstəyi və metodoloji köməkliklər göstərir. Sahibkarlara kreditlərin verilməsi, onların fəaliyyətinin stimullaşdırılması üçün sərfəli şərtlərlə xammal, avadanlıq alınması, ixrac bazarlarına çıxış üçün sərgi, yarmarka və biznes görüşlərdə iştirakın təmin edilməsi həmişə diqqətdə saxlanılaraq bu gün öz bəhrəsini verməkdədir. 2019-cu ildə muxtar respublikada iş adamlarına yeni istehsal sahələrinin yaradılması və ya genişləndirilməsi məqsədilə 12 milyon 131 min manatdan, ümumilikdə isə 29 milyon 16 min manatdan artıq həcmdə verilmiş kreditlər, bu mənada, sahibkarlarımızın dayanıqlı fəaliyyətinin əsas faktoru kimi vurğulanmalıdır.



2020-ci ildə muxtar respublika iqtisadiyyatının daha da inkişaf etdirilməsi yolunda özəl sektorun qarşısında mühüm vəzifələr dayanır. Əldə olunmuş uğurların davamlılığının qorunub saxlanılması və artan əhali tələbatına uyğun olaraq iqtisadiyyatın çoxşaxəli inkişafının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda qarşıya qoyulmuş vəzifələrin icrası baxımından cari ilin prioritet məsələlərindəndir.

Ölkə Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən Şərur rayonunda Şərur Sənaye Məhəlləsinin yaradılması məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə ilkin olaraq 5 milyon manat vəsait ayrılıb. Bu, muxtar respublikada sənayenin inkişafına yeni imkanlar yaradacaq, digər biznes subyektləri üçün yeni bazar imkanları açacaq. Bütün bu vəzifələrin uğurlu həlli üçün isə bu gün daha münbit şərait vardır.

**Əli CABBAROV**
*iqtisad üzrə fəlsəfə doktoru*

# Daxili bazar qış fəslində də tərəvəz məhsulları ilə təmin edilir

*Qış fəslində belə, bazar-dükanlarda yer alan tərəvəz məhsullarına tələbat çox olur. Sahibkarlar istixanalarda ərsəyə gətirdikləri məhsulları şəhər və rayon bazarlarına çıxarıb yaxşı qazanc əldə etməklə bərabər, əhalini payız, qış mövsümlərində də tərəvəz ilə təmin edirlər. İstixanalarda müasir kənd təsərrüfatı texnikalarından istifadə, yeni texnologiyaların tətbiqi yüksək məhsuldarlığa nail olunması ilə yanaşı, keyfiyyətli məhsul istehsalında da mühüm rol oynayır. Bu mənada, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" böyük əhəmiyyətə malikdir. Belə ki, proqramın icrası istiqamətində davamlı tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, yeni istixana kompleksləri yaradılır.*

Muxtar respublikanın digər rayonları ilə yanaşı, Babək rayonunda da bir neçə istixana kompleksi fəaliyyət göstərir. Dövlət dəstəyi və sahibkarların şəxsi vəsaiti hesabına qurulan bu istixanalarda yetişdirilən tərəvəz məhsulları muxtar respublikanın bazar, dükan və marketlərində satışa çıxarılmaqla yanaşı, ölkəmizin digər bölgələrinə də ixrac edilir.

Bu günlərdə Babək qəsəbə sakini, təsərrüfat sahibi Rövşən Nağıyevlə həmsöhbət olduğumuzda o bildirdi ki, nübar məhsulu dekabr ayından başlayaraq bazara çıxarır. İxtisasca müəllim olan sahibkar uzun illərdir ki, bu sahə ilə məşğuldur. Deyir ki, təxminən, 35-40 ildir ki, ruzimizi bu istixanalardan çıxarırıq. Ərazilərimizdə göyərti əkmişik. Pay torpaqlarımızla göyərti əkini sahəsini daha da genişləndirmişik. Torpaq gün-güzəranı və dolanışığı təmin edən ən qiymətli sərvətdir. Naxçıvan bazarında bu məhsulların yaxşı da alıcısı vardır. Bu təsərrüfatlardan həm biz dolanırıq, həm də bir neçə ailənin məşğulluğu təmin edilir.



Müsahibimin sözlərinə görə, istixanaların üstünün örtülməsi, adətən, oktyabrın əvvəlindən başlayıb, noyabr ayının sonuna qədər davam edir. O deyir ki, soyuğa davamlılığına görə göyərtilərin üstünü ayrı-ayrı vaxtlarda örtürük. Sahədə cəfəri, kəvər, keşniş, şüyüd, məzrə, nanə becəririk. Bu da qışın oğlan çağında belə, Naxçıvan bazarında istənilən göyərtini tapmağa kömək edir. Sahibkarlar dövlətdən güzəştli şərtlərlə kredit əldə edərək öz təsərrüfatlarını genişləndiriblər. Bu həm də muxtar respublikada ərzaq təhlükəsizliyinin aradan qaldırılmasına verilən bir töhfədir. Əvvəllər xaricdən gələn meyvə-tərəvəz, həmçinin göyərtilər bazarda üstünlük təşkil edirdi. İndi isə yerli məhsullar bolluğu və keyfiyyətliliyi ilə seçilir.

"Nehrəm-Aqro" tərəvəz məhsulları istixana kompleksi də dövlət dəstəyindən bəhrələnərək fəaliyyətini uğurla davam etdirən sahibkarlıq subyektidir. Babək rayonunun Nehrəm-Çeşməbasar yolu kənarında yerləşən istixana kompleksinin yaradılmasına 2012-ci ildə başlanılıb. Burada bir il ərzində istixanalar qurulub, inzibati bina tikilib, əraziyə su xətti çəkilib. 2013-cü ildən isə müxtəlif tərəvəz məhsullarının yetişdirilməsinə başlanılıb. Sahibkar Nağı Nağıyev bildirir ki, həmin il aldığı 161 min manat dövlət maliyyə dəstəyi hesabına təsərrüfatını qura bilib. Hazırda 5950 kvadratmetr ərazini əhatə edən kompleksdə tərəvəz məhsullarının becərilməsi ilə məşğuldurlar. İstixanalarda, əsasən, yerli pomidor və xiyar məhsulları yetişdirilir və dad-tamına, keyfiyyət göstəricilərinə görə idxal olunan məhsullardan xeyli fərqlənir. Ötən il 84 ton tərəvəz məhsulunu yerli bazarlarda satışa çıxardıqlarını deyən sahibkar bu il məhsulunu paytaxt Bakının bazarlarında da satışa çıxarmağı planlaşdırdığını bildirir. O qeyd edir ki, tələbatı nəzərə alaraq bu il üçün də əkin aparıblar, hətta xiyar əkininə də başlayıblar.



Yuxarı Uzunoba kənd sakini Murad Cabbarov tərəfindən 3500 kvadratmetr ərazidə qurulan istixana təsərrüfatı da daxili bazarı yerli məhsullarla təmin edir. Sahibkar deyir ki, əvvəlcə qardaş Türkiyə Respublikasında eyniprofilli təsərrüfatda təcrübə keçib. Sonra şəxsi vəsaiti hesabına tərəvəz məhsulları istehsal edən bu cür kompleks qura bilib, dövlət maliyyə dəstəyi hesabına imkanlarını genişləndirib. Kompleksdə 7 nəfərin daimi işlə təmin olunduğunu bildirən sahibkar deyir ki, bu cür istixanaların fəaliyyət göstərməsi ərzaq təhlükəsizliyinin təmin olunmasına böyük köməkdir. Məhsul bolluğu həm də qiymətlərin aşağı olması deməkdir.

Nəcəfəlidizə kəndində 2015-ci ildə yaradılan istixana kompleksinin sahəsi 2000 kvadratmetrdir. Sahibkar İlkin Abdullayev bildirir ki, dövlət maliyyə dəstəyi ilə yaratdığı kompleksdə, əsasən, pomidor əkini ilə məşğul olur. Ötən il 25 ton məhsulu bazara çıxaran təsərrüfat rəhbəri deyir ki, öz ailəmlə yanaşı, daha 4 ailə buradan evinə çörək aparır. O, sahibkarlara göstərilən dəstəyə görə dövlətimizə minnətdarlığını bildirdi.

Bu gün bir rayonda sahibkarlığa göstərilən qayğıdan bəhrələnib öz təsərrüfatlarını quran insanlarla söhbətlərimizdən belə qənaətə gəlirik ki, muxtar respublikada əhalinin qış aylarında da tərəvəz məhsulları ilə təmin olunması istiqamətində xeyli iş görülüb. İstixanaların və soyuducu anbarların yaradılması, sahibkarlara dövlət maliyyə dəstəyinin göstərilməsi, əldə edilən məhsulların satışa çıxarılması üçün imkanların genişləndirilməsi həm yeni təsərrüfat sahələrinin yaradılmasına təkan verir, həm də ərzaq bolluğunu təmin edir. Bu qayğıdan bəhrələnənlər isə gün-güzəranını təmin etməklə bərabər, sahibkar adını qazanır, özü ilə birgə bir neçə ailəni də çörək sahibi edir.

**Ramiyyə ƏKBƏROVA**
**Muxtar RZAZADƏ**

# Seçkilərin demokratik və şəffaf keçirilməsi üçün kifayət qədər təcrübə qazanılıb

***Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərə çox az bir zaman qalır. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımovla həmsöhbət olaraq ona bir neçə sualla müraciət etdik:***



*– Məhərrəm müəllim, artıq seçkiyə sayılı günlər qalıb. Seçki komissiyaları və ümumiyyətlə, seçki məntəqələri seçkiləri keçirməyə tam hazırdırmı və onların seçki ləvazimatları ilə təminatı barədə nə deyə bilərsiniz?*

– Bəli, 9 fevralda, eyni zamanda həm Azərbaycan Respublikasının Milli Məclisinə, həm də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə növbədənkənar seçkilər keçiriləcəkdir. Seçkilər gününün təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları rəsmi dərc olunduqdan sonra seçkilərə hazırlıq prosesinə başlanılıb. Bu müddətdə seçki komissiyalarının hamısı tələb olunan bütün normativ aktlar, sənədlər, sənəd nümunələri və əşyalarla təmin olunublar. Həmçinin onların təlimatlandırılması işi də mütəmadi şəkildə həyata keçirilir, seminar-treninqlər təşkil olunur və bu proses, yəni seçki komissiyalarının təminatı və təlimatlandırılması seçkilər gününədək davam etdiriləcəkdir.

*– Deputatlığa namizədlərin irəli sürülməsində və seçkiqabağı təşviqat dövründə onlar üçün seçki dairələrində hansı şərait yaradılıb? Qısa da olsa, həm Milli Məclisə, həm də Ali Məclisə qeydə alınmış namizədlər barədə nə deyə bilərsiniz?*

– Həmin namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesi açıq və şəffaf şəkildə qanunvericiliyin tələblərinə uyğun həyata keçirilib. Azərbaycan Respublikasının Milli Məclisinə muxtar respublikada fəaliyyət göstərən 7 seçki dairəsi üzrə 25 nəfərin namizədliyi qeydə alınıb. Onlardan 9 nəfəri Yeni Azərbaycan Partiyasının, 2 nəfəri Böyük Quruluş Partiyasının, 1 nəfəri Azərbaycan Sosial Rifah Partiyasının, 1 nəfəri Vahid Azərbaycan Partiyasının nümayəndələri, 12 nəfəri isə bitərəfdir. Namizədlərdən 3 nəfəri qadındır. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə deputatlığa namizədlərin seçkiqabağı təşviqatı yanvarın 17-dən etibarən başlanılıb. Bütün şəhər və rayon mərkəzlərində kütləvi tədbirlərin keçirilməsi üçün açıq və qapalı yerlər müəyyən olunub, müvafiq yerlərdə təşviqat materiallarının asılması üçün təşviqat lövhələri yerləşdirilib.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər üzrə isə 45 seçki dairəsindən 140 nəfərin namizədliyi qeydə alınıb. Onlardan 87-si Yeni Azərbaycan Partiyasının, 1 nəfəri Azərbaycan Xalq Cəbhəsi Partiyasının nümayəndəsi, 52 nəfəri isə bitərəfdir. Namizədlərdən 18-i qadındır. Ali Məclisə seçkilər üzrə isə seçkiqabağı təşviqat yanvarın 28-dən etibarən başlanılıb və həm Milli Məclisə, həm də Ali Məclisə seçkilərlə bağlı təşviqat fevralın 8-i saat 8⁰⁰-a kimi davam edəcəkdir. Həmin saatdan sonra bütün təşviqat materialları yığışdırılacaq.

*– Seçki günü, yəni 9 fevralda səs vermək istəyən seçicilərimiz seçki məntəqələrinə saat neçədə gəlməlidir, başqa sözlə desək, seçkilər nə vaxt başlayıb, nə vaxt bitəcək və onlar özləri ilə hansı sənədləri gətirməlidirlər?*

– Səsvermə səhər saat $8^{00}$-da başlayacaq və $19^{00}$-a qədər davam edəcəkdir. Bu saatlarda seçicilər istənilən vaxt gəlib səs verə bilərlər. Onlar səsverməyə gələrkən mütləq özləri ilə şəxsiyyəti təsdiq edən hər hansı bir sənəd gətirməlidirlər. Vətəndaşlar şəxsiyyət vəsiqəsi ilə səs verirlər. Həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular müvafiq olaraq zabitin şəxsi vəsiqəsi və ya hərbi bilet ilə səs verəcəklər. Barələrində həbs qətimkan tədbiri seçilmiş və istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər, həmçinin azadlıqdan məhrumetmə yerlərində və xüsusi müəssisələrdə cəzaçəkən şəxslər Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin və məhkumun şəxsiyyətini təsdiq edən sənədlə səs verə biləcəklər.

*– Bəs əgər seçici şəxsiyyətini təsdiq edən sənədi özü ilə gətirməyibsə?*

– Bu zaman məntəqə seçki komissiyasının seçicini qarşılayan və barmağının mürəkkəblə işarələnməsini yoxlayan üzvü həmin seçiciyə bu halda səs verməsinin qeyri-mümkünlüyünü bildirəcək və tələb olunan şəxsiyyəti təsdiqləyən sənədlə gəlməsini izah edəcəkdir.

*– Fiziki qüsurlarına görə seçicinin seçki bülletenini almaqda və doldurmaqda çətinliyi olarsa?*

– Bu, müstəsna haldır. Belə olduqda köməyə ehtiyacı olan seçici seçki komissiyalarının üzvləri, müşahidəçilər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların bloklarının səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri istisna olmaqla kömək üçün istənilən hər hansı bir şəxsə müraciət edə bilər. Seçiciyə seçki bülletenini almaqda və doldurmaqda kömək edən şəxs öz inisialını və soyadını göstərməklə, seçici siyahısının “Seçicinin seçki bülletenini alması haqqında imza” qrafasında imza etməlidir. Bundan sonra seçici dərhal səsvermə kabinəsinə daxil olur. Əgər seçki bülletenini doldurmaqda da köməyə ehtiyac olarsa, o zaman kömək edən şəxs seçici ilə birlikdə səsvermə kabinəsinə daxil olub ona kömək edə bilər. Seçki bülleteni seçki qutusuna daxil olduqdan sonra həm seçici, həm də ona kömək etmiş şəxs seçki məntəqəsini tərk edirlər.

*– Səhhətinə və ya digər üzrlü səbəblərə görə seçki məntəqəsinə səsverməyə gələ bilməyən seçicilər necə səs verəcəklər?*

– Həmin seçicilər daşınan seçki qutuları ilə səs verə biləcəklər. Bu şəxslər səsvermə gününə ən azı 24 saat qalmış, yəni fevralın 8-i, səhər saat $8^{00}$-a qədər bu barədə müvafiq məntəqə seçki komissiyasına yazılı və ya şifahi müraciət etməlidirlər. Belə seçicilərin siyahıları müraciətlər əsasında məntəqə seçki komissiyaları tərəfindən hazırlanır və səsvermə günü məntəqə seçki komissiyasının bu iş üçün məsul olan üzvləri seçicinin ünvanına gedərək səsverməni təmin edirlər.

*– Daşınan seçki qutuları ilə səs verən seçicilərin də barmaqları gözə görünməyən mürəkkəblə işarələnir?*

– Xeyr, daşınan seçki qutusu ilə səs verən seçicilərin barmaqları mürəkkəblə işarələnmir.

*– Seçki günü seçki məntəqələrində kimlər ola bilər?*

– Həmin gün seçki məntəqəsində məntəqə seçki komissiyasının üzvləri, dairə seçki komissiyasının və Mərkəzi Seçki Komissiyasının üzvləri, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların bloklarının müvafiq qaydada qeydə alınmış səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, akkreditasiyadan keçmiş beynəlxalq müşahidəçilər və yerli müşahidəçilər ola bilərlər. Zəruri hallarda isə səsvermə zamanı məntəqə seçki komissiyası sədrinin dəvəti ilə yalnız ictimai asayişi bərpa etmək məqsədilə xidməti geyim formasında polis işçiləri və ya texniki problemlərin həlli üçün müvafiq mütəxəssislər, zəruri yardıma ehtiyac olan hallarda isə təcili tibbi yardım, yaxud Fövqəladə Hallar Nazirliyinin əməkdaşları gələ bilərlər. Onlar vəzifələrini icra edəndən dərhal sonra məntəqəni tərk etməlidirlər.

*– Hərbi qulluqçular və cəzaçəkmə müəssisələrində cəzaçəkən seçicilərimiz necə səs verəcək?*

– Hərbi hissələrin, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin, yəni hərbi hissələrdə yerləşən hərbi qulluqçuların, hərbi hissələrin yerləşdiyi ərazinin hüdudlarında yaşayan hərbi qulluqçu ailələrinin, istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslərin və cəzaçəkmə müəssisələrində cəzaçəkən məhbusların və digər seçicilərin siyahıları hərbi hissə komandirlərinin, istintaq təcridxanaları və cəzaçəkmə müəssisələri rəhbərlərinin seçicilər haqqında məlumatı əsasında səsvermə gününə azı 20 gün qalmış məntəqə seçki komissiyaları tərəfindən dəqiqləşdirilir. Hərbi qulluqçular ümumi seçki məntəqələrində səs verirlər. Yaşayış məntəqələrindən kənarda yerləşən hərbi hissələrdə seçki məntəqələrinin yaradılmasına yalnız o halda yol verilir ki, hərbi qulluqçuların ümumi seçki məntəqələrinə ictimai nəqliyyatla çatdırılması üçün 1 saatdan çox vaxt lazım olsun və hərbi qulluqçuların ümumi sayı 50-dən artıq olsun. Belə hallarda seçki məntəqələri müvafiq dairə seçki komissiyasının qərarına uyğun olaraq hərbi hissələrin komandirləri tərəfindən səsvermə gününə azı 5 gün qalmış yaradılır. Sərhəd mühafizə orqanlarının hərbi qulluqçuları və hərbi münaqişə zonasında yerləşdirilən hərbi qulluqçular, Mərkəzi Seçki Komissiyası müəyyən etdiyi hallarda xüsusi rejim şəraitində qulluq edən hərbi qulluqçular onların hərbi hissələrində yaradılan seçki məntəqələrində səs verirlər. Muxtar respublikada bu kateqoriyadan olan seçicilərin səs vermələri üçün 24 seçki məntəqəsi təşkil olunur.

*– Seçkilərdə müşahidəçilərin iştirakı ilə bağlı nə deyə bilərsiniz?*

– Seçki komissiyalarının fəaliyyəti seçicilər üçün şəffaf olmalıdır. Bu baxımdan aktiv seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşları, o cümlədən Seçki Məcəlləsinin 44-cü maddəsində göstərilən xarici vətəndaşlar müşahidəçi qismində çıxış edə bilərlər. Yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar. Müşahidəçi müşahidəni öz təşəbbüsü ilə və ya qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında apara bilər. Lakin bu zaman müşahidəçilər seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərməməli, müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktları nəzərə almalı, müşahidəni açıq aparmalı və müşahidənin yekunları faktlara əsaslanmalıdır. Bu prinsiplər müşahidəçinin lövhəciyinin arxasında göstərilir və bunlara mütləq əməl olunmalıdır.

*– Ümumiyyətlə, müşahidəçilərə hansı hərəkətlərin edilməsi qadağan olunur?*

– Müşahidəçilərə seçicilərə seçki bülletenləri vermək, seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək, seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması haqqında imza etmək, seçicinin xahişi ilə seçki bülletenini doldurmaq, seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək, seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək, seçicilər arasında təşviqat aparmaq, bu və ya digər namizədin, siyasi partiyanın, müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək, öz statusu ilə bağlı suallar istisna olmaqla, seçicilərin suallarına cavab vermək qadağandır.

*– Seçici seçki məntəqəsinə gələrkən ilk hərəkəti nə olmalıdır?*

– Seçici, ilk növbədə, məntəqə seçki komissiyasının qarşısında asılmış seçici siyahısında öz adının olub-olmadığını yəqinləşdirməlidir. Əgər adının seçici siyahısında olduğunu müəyyən edərsə, seçki məntəqəsinə daxil olur. Seçicini qarşılayan və barmağının gözə görünməyən mürəkkəblə işarələnməsini yoxlayan məntəqə seçki komissiyasının üzvünə yaxınlaşaraq şəxsiyyət vəsiqəsini göstərir və barmağının işarələnib-işarələnməməsini yoxlamasına şərait yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə seçicinin barmağı gözə görünməyən mürəkkəblə işarələnmir.

Həm Milli Məclisə, həm də Ali Məclisə seçkilər üzrə məntəqə seçki komissiyaları eyni səsvermə otağında fəaliyyət göstərəcəkdir. Yəni seçici səsvermə otağına daxil olduqda onu qarşılayan məntəqə seçki komissiyasının üzvü tərəfindən yönləndiriləcək. Belə ki, seçici əvvəlcə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə seçki bülletenini alacaq, səsvermə kabinəsinə daxil olub səs verdikdən sonra həmin bülleteni qatlayaraq “Milli Məclisə seçkilər” yazılmış seçki qutusuna atacaq. Daha sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər üzrə fəaliyyət göstərən seçki məntəqəsinin üzvlərinə yaxınlaşaraq bülleten götürəcək və yenə də səsvermə kabinəsinə daxil olub səs verəcək. Həmin bülleteni üzərində “Ali Məclisə seçkilər” yazılmış seçki qutusuna atacaq, yalnız bundan sonra məntəqəni tərk edəcəkdir. Seçici öz istəyi ilə hər iki komissiyanın bülletenini götürüb seçki kabinəsinə daxil ola bilər.

*– Seçici adını seçici siyahısında tapa bilməsə, nə etməlidir?*

– Seçici öz adını seçici siyahısında tapa bilməsə, məntəqə seçki komissiyası tərəfindən həmin seçicinin şəxsiyyət vəsiqəsi əsasında seçki məntəqəsinin əhatə etdiyi ərazidə qeydiyyatı yəqin edildikdən sonra adı əlavə seçici siyahısında qeyd olunmaqla səsverməsi ümumi əsaslarla təmin edilir.

*– Barmağının gözə görünməyən mürəkkəblə işarələnməsindən imtina edən seçicilər səsvermədə iştirak edə bilərlərmi?*

– Xeyr, səsvermə hüququnun həyata keçirilməsi üçün seçicinin barmağının gözə görünməyən mürəkkəblə işarələnməsi zəruridir. Buna etiraz edən seçiciyə seçki bülleteni verilməyəcəyi izah edilir. Əgər seçici fikrini dəyişməzsə, ondan seçki məntəqəsini tərk etməsi xahiş olunur və seçici siyahısında “işarələnmədən imtina etdi” qeydi aparılır.

*– Bir səsvermə kabinəsində eyni zamanda neçə seçici səs verə bilər?*

– Əvvəl qeyd etdiyim istisna hal nəzərə alınmaqla, bir səsvermə kabinəsində yalnız bir nəfər səs verə bilər.

*– Seçici bülleteni hansı qaydada doldurmalıdır?*

– Bu haqda həm seçki məntəqəsinin otağında, həm də seçki bülleteninin üzərində izah yerləşdirilir. Yəni seçici seçki bülleteninə hər hansı bir işarə qoymazdan əvvəl bunlarla tanış ola bilər. Yadda saxlamaq lazımdır ki, seçki bülletenində adları göstərilən namizədlərdən yalnız biri deputat seçilməlidir. Buna görə də seçici lehinə səs vermək istədiyi namizədin adının qarşısında yerləşən boş kvadratda hər hansı bir işarə, məsələn, “X” işarəsi qoyur. Heç bir işarə qoyulmayan, yaxud birdən artıq kvadratda işarə qoyulan seçki bülleteni etibarsız sayılacaqdır.

*– Seçici səsvermə bülletenini doldurarkən səhvə yol verərsə, ona yeni bülleten verilə bilərmi?*

– Bəli, bu zaman seçici ona yeni bülleten verilməsini xahiş edə bilər. O, korlanmış bülleteni məntəqə seçki komissiyasının üzvünə qaytarmalıdır. Buna məsul olan məntəqə üzvü korlanmış seçki bülletenini seçicidən alır, onu yarıdan kəsməklə ləğv edir və korlanmış seçki bülletenləri üçün nəzərdə tutulmuş zərfə qoyur. Bundan sonra seçiciyə yeni seçki bülleteni verilərək bu barədə seçici siyahısında müvafiq qeyd aparılır. Məntəqə seçki komissiyasında hər bir korlanmış seçki bülleteni ilə əlaqədar ayrıca akt tərtib olunur.

*– Seçici verdiyi səsinin etibarlı olması üçün həm də diqqət etməlidir ki, ona verilən bülleten qanunla müəyyənləşdirilmiş formada olsun. Belə bülletenin meyarları nələrdir?*

– Bəli, bu çox əhəmiyyətli məsələdir. Seçici diqqət etməlidir ki, bülleten Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi nümunəyə müvafiq olsun. Həmçinin bülletenin yuxarı sağ küncündə məntəqə seçki komissiyasının möhürü və bülletenin nömrələnmiş yuxarı sol küncü kəsilmiş olmalıdır. Bülleten qeyd edilən meyarların hər üçünə cavab verdikdə müəyyənləşdirilmiş formalı hesab olunur.

*– Səsvermə başa çatdıqdan sonra ən həlledici mərhələlərdən biri – səslərin hesablanmasıdır. Seçki komissiyalarının üzvləri buna tam hazırdırlarmı?*

– Əlbəttə, bütün seçkilərdə olduğu kimi, bu seçkidə də seçki prosesinə start veriləndən bəri diqqətdə saxlanılan mühüm məsələlərdən biri də budur. Muxtar respublikada bu günədək keçirilmiş seçkilərdə seçki komissiyalarının kifayət qədər seçki təcrübələri formalaşıb. Buna baxmayaraq, dairə və məntəqə seçki komissiyaları səslərin hesablanması və yekun protokolların doldurulması qaydaları ilə əlaqədar bütün təlimat, izah və qaydalarla təmin olunublar. Həmçinin dairə seçki komissiyalarının təsdiq etdikləri qrafikə uyğun olaraq onlar mütəmadi seminar-treninqlərə cəlb edilir və bu tədbirlərdə seçki günü səsvermənin keçirilməsi, səslərin hesablanması məsələləri ilə əlaqədar qanunvericiliyin tələbləri bütün detalları ilə onlara izah olunur.

*– Bu seçkilərdə də seçki məntəqələrində veb-kameralar olacaqmı?*

– Bəli, muxtar respublika üzrə hər seçki dairəsindən 5 məntəqə olmaqla, 35 seçki məntəqəsində veb-kameralar quraşdırılıbdır. Bunlar seçki günü aktiv olacaqdır və bütün prosesi dünyanın hər yerindən onlayn izləmək mümkün olacaqdır.

*– Sonda seçicilərimiz üçün nə deyə bilərsiz?*

– Bu günədək muxtar respublikada keçirilmiş bütün seçkilər Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunvericiliyinə, həmçinin beynəlxalq standartlara uyğun olub. Muxtar respublikada fəaliyyət göstərən seçki komissiyalarının seçkilərin demokratik və şəffaf şəkildə keçirilməsi ilə əlaqədar seçki təcrübəsi hər seçkidə daha da təkmilləşir. Fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərinin də şəffaf və ədalətli, demokratiyanın prinsip və şərtlərinə uyğun keçirilməsi üçün səylə çalışacağıq.

**Müsahibəni apardı:**
**Muxtar MƏMMƏDOV**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Yallılar xalqımızın tarixi yaddaşının və milli dəyərlər sisteminin ayrılmaz tərkib hissəsidir

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. Yallı Azərbaycan xalqının qəhrəmanlıq, mərdlik rəmzidir, tarixidir. Bu tarixi heç vaxt unutmaq olmaz. Naxçıvan torpağında bu tarix yaşayır, inkişaf edir və örnək olaraq gələcək nəsillərə qalır".***



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı bu qiymətli milli sərvətimizə böyük ehtiramın ifadəsi kimi dəyərləndirilir. Bu mühüm dövlət sənədi xalq yaradıcılığının müasir dövrümüzdə inkişafına, təbliğinə və tədqiqinə yeni üfüqlər açıb. Sərəncamda digər sahələrlə yanaşı, yallı rəqsləri barədə də deyilir: *"Yurdumuzun qədim sakinlərinin, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahür forması olan folklorun, musiqi və rəqs sənətinin ən qədim qaynaqları eramızdan əvvəl IV-I minilliklərə aid Gəmiqaya təsvirlərində, "Avesta" və "Kitabi-Dədə Qorqud" kimi qədim qaynaqlarda öz əksini tapmışdır. Dünyanın ən qədim kollektiv ifa növlərindən olan Azərbaycan xalq yallıları xoreoqrafiya, instrumental və vokal musiqisini özündə birləşdirən nadir yaradıcılıq nümunəsidir".*



Yallılar uzun bir inkişaf yolu qət edib, zaman keçdikcə insanların ictimai həyat tərzinin, bədii-estetik zövqünün ayrılmaz tərkib hissəsinə çevrilərək gözəllik və incəliyin, vətənpərvərlik və insanpərvərliyin təzahürü olub, ruhumuzu oxşayan digər çalarlarla zənginləşdirilib.

Tədqiqatçıların fikrincə, yallı rəqslərinin yaranma tarixi əlifbanın, yazılı mədəniyyətin əmələ gəlməsindən əvvəlki dövrlərə təsadüf edib. Aparılan araşdırmalara görə, ilkin yallı oyunları oda, atəşə pərəstiş dövründə formalaşıb. Onlar od-ocaq ətrafında toplanmaqla icra edilən mərasimlərdəndir. Sonralar isə əhalinin başlıca məşğuliyyət sahəsinə çevrilmiş ovçuluqla bağlı rəqs nümunələri yaranıb. Ovun, döyüşün uğurlu olmasını arzulayan, ovsuna, tilsimə arxalanan, fövqəltəbii qüvvələrə sitayiş edənlər özlərinin bu münasibətlərini mərasimlərdə təqlid, təsvir yolu ilə ifadə etməyə çalışıblar. Yallılarda mərdlik, birlik, çağırış, sevgi və qalibiyyət hissləri xarakterizə edilir. Alimlərin fikrincə, oğuz ellərinin həyat tərzi, məişəti, dünyagörüşü "Kitabi-Dədə Qorqud" dastanlarında sözlə, fikirlə, yallılarda isə rəqslə, ritmik hərəkətlərlə ifadə olunub. Hər bir yallı növü xüsusi məna və məzmun daşıyıb. Xalqımızın yaşam tərzini, adət-ənənəsini, mübarizliyini, qorxmazlığını həmişə haqq-ədalət və sülhə can atmasını özündə yaşadıb. Bununla bağlı Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində, "Kitabi-Dədə Qorqud" dastanında, Nizaminin "Xosrov və Şirin" poemasında müəyyən təsvir və məlumatlara rast gəlinir. Azərbaycanın tanınmış musiqiçisi, Xalq artisti Əminə Dilbazi deyirdi ki, yallılar qədər ölkəmizi dünyaya tanıdan ikinci bir vasitə yoxdur: "Söz demədən o, xalqımıza məxsus bütün xüsusiyyətləri, onun kimliyini, tarixini, mədəniyyətini bütün millətlərə aşılaya bilir". O bu mənada, Şərur yallılarını birinci sırada görür. Çünki Şərur yallılarının tarixi, ruhi-mənəvi qaynaqları, bədii-estetik gözəlliyi, min illərin düşüncə tərzini yaşatması, rəqs hərəkətlərinin rəmzləri, incə elementlərin izahı və öyrənilməsi, təhlil ediləsi cəhətləri haqqında deyiləsi fikirlərə bu gün böyük ehtiyac vardır.

Qürurvericidir ki, Şərur yallılarının tədqiqi, təbliği və qorunması ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 24 dekabr tarixli Sərəncamına əsasən Tədbirlər Planı təsdiq edilib. Muxtar respublika rəhbərinin qayğısı ilə yallı sənətinin inkişafı sahəsində məqsədəuyğun addımlar atılıb, yallılar ilk dəfə nota köçürülüb, onun əsasında "Naxçıvan-Şərur el yallıları" kitabı nəşr olunub. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən ötən ilin 21 dekabrında "Şərur yallılarının reyestri"nə daxil edilməsi nəzərdə tutulan yallılara dair məlumatlar haqqında Qərar qəbul edilib. Qərara əsasən "Köçəri", "Göyçəməni", "Tənzərə", "Baharı", "Xələfi", "Qaleyi", "Nareyi", "Xəlili", "Bəndil", "Gilanı" və sair yallıların adları "Şərur yallılarının reyestri"nə daxil olunub.

Mütəxəssislərin fikrincə, bir vaxtlar Şərur bölgəsində yallının 100-dən çox növü olub. Onların bir qismi toy mərasimlərində, el şənliklərində yaşadılaraq bu günə gəlib çıxıb. Bu yallıların qorunması, yaşadılması və təbliğində "Şərur" Xalq Yallı Ansamblının mühüm rolu olub.

Ansamblın əsası 1924-cü ildə qoyulub. 30-cu illərin ortalarından "Staxanov kolxozçularının rəqs ansamblı" adı ilə fəaliyyətə başlayıb. Ölkəmizdə mədəniyyətə və incəsənətə göstərilən diqqət və qayğıdan bu kollektiv də nəsibini alıb. Ötən əsrin 70-ci illərindən "Şərur yallısı" el-el, oba-oba gəzib, dolaşıb. Kollektiv dünyanın bir çox ölkələrində keçirilən festivallarda iştirak edərək diplom və mükafatlara layiq görülüb. Həmin illərdə Bakı şəhərində keçirilən "Naxçıvan mədəniyyəti günləri"ndə muxtar respublikanı təmsil edən kollektivlər sırasında ansamblın çıxışları alqışlarla qarşılanıb. Respublika Sarayındakı yekun tədbirdə iştirak edən ulu öndər Heydər Əliyev konsertdən sonra səhnə arxasında ifaçılarla söhbət edərkən onların çıxışından razı qaldığını bildirib, tövsiyə və tapşırıqlar verib: ***"Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. Yallını qoruyub saxlayın. Bu, Naxçıvanın tacıdır".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin yallı sənəti ilə bağlı tədqiqatlar aparmaları bu irsin YUNESKO səviyyəsində qorunması sahəsində tədbirlərin həyata keçirilməsi, "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim edilməsi bu sənət sahəsinə nə qədər böyük diqqətin olduğunu bir daha təsdiqləyir.

*Xalqımızın qəhrəmanlıq salnaməsinin bir parçası, vətənpərvərliyin, milli birliyin, həmrəyliyin rəmzi olan yallılar hər zaman el coşqusu ilə ifa edilib. İgidlər döyüşə yallı sədası altında yollanıblar. Buna görə də hər bir obada, oymaqda indi də bir xeyir iş olanda yallılar səsindən dağlar, daşlar lərzəyə gələn qara zurnanın müşayiəti ilə elə bir həvəslə ifa olunur ki, hətta yallı getməyi bacarmayanlar belə, rəqs edənlərə qoşulurlar. Yallılar xalqımızın tarixi yaddaşının və milli dəyərlər sisteminin ayrılmaz tərkib hissəsidir. Bu dəyərləri yaşatmaq, gələcək nəsillərə olduğu kimi çatdırmaq bizlərin vətəndaşlıq borcudur.*

**Nuray ƏSGƏROVA**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Könüllü fəaliyyət hansı istiqamətlər üzrə həyata keçirilir?***

**Cavab:** Könüllü fəaliyyət ölkə qanunvericiliyi ilə qadağan edilməyən işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyətdir. Könüllü isə öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti şəxsən həyata keçirən Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdir.

Bu fəaliyyət sağlamlıq imkanları məhdud şəxslərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə, qaçqınlara və məcburi köçkünlərə kömək edilməsi, insanpərvərliyin və dözümlülüyün təbliği, istehlakçıların hüquqlarının qorunması, hüquqi və mədəni maarifləndirmə tədbirlərini nəzərdə tutur. Bununla yanaşı, könüllülük uşaq və gənclərin təhsili, tərbiyəsi, fiziki və əqli inkişafı, idmanın inkişafı barədə məlumatlandırma, sağlam həyat tərzinin təbliği, ətraf mühitin mühafizəsi, silahlı münaqişələr, təbii fəlakətlər və digər fövqəladə halların nəticələrinin aradan qaldırılmasına, o cümlədən fövqəladə hallar nəticəsində zərərçəkmiş şəxslərə yardım göstərilməsi, cəzaçəkmə müəssisələrindən azad edilən, narkotik asılılığa düçar olan, məişət zorakılığına məruz qalan şəxslərə və çətin həyat şəraitində olan digər şəxslərə (ailələrə) kömək edilməsi və Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olmayan digər fəaliyyət sahələri üzrə həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərmarka" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən qiymətli poçt markalarının da yer aldığı "Naxçıvan" adlı albom nəşr edilib. Türkiyənin İstanbul şəhərində fəaliyyət göstərən "Caspigroup"mətbəəsində 2 min ədəd tirajla nəfis şəkildə tərtib edilən albomun üz qabığında Möminə xatın türbəsindən fraqment təsvir olunub.

## Naxçıvan Muxtar Respublikasına həsr olunmuş albom nəşr edilib




Albomun layihə rəhbəri Leyla Güləliyevadır, dizaynı Fəxriyyə Məmmədovaya, markaların dizaynı isə Anar Mustafayevə məxsusdur. Albomdakı fotoların müəllifi ixtisaslaşmış fotoqraf Emil Xəlilovdur. Burada Naxçıvanın təbii landşaftlarının müxtəlifliyi, tarixi abidələri, insanlarının həyatı və mədəniyyət ənənələri, etnoqrafik süjetlər fotolarla ətraflı şəkildə təqdim edilir. Albomda Naxçıvanın təbiəti, memarlığı, ziyarətgahları, Gəmiqaya petroqliflərinin öz əksini tapdığı 20 marka, ümumilikdə, 135 foto vardır. Hər bir foto və markanın aşağısında verilən Naxçıvan haqqında kiçik informasiyalar albomu daha da maraqlı edir: "…Yerli sakinlərin arasında dolaşan əfsanəyə görə, Nuhun gəmisi bir vaxtlar məhz elə bura yan alıb. Bax ora, bazalt dağ yüksəkliyinə – bu günə qədər də buranı Gəmiqaya adlandırırlar. Gözəl əfsanədir. Elə axşamçağı – şairlərin qafiyələrin axınından nəfəsini dərə bilmədiyi, fotoqrafların bu anı yaddaşlara köçürmək, onu saralmış payız yarpağı kimi çayın axını ilə aşağı aparmağa çalışan zamanın axarından xilas etmək üçün obyektivləri ilə can atdıqları bir vaxtda sulu boyalı səmanın fonunda qaralan Gəmiqaya kimi gözəl…" Albomdakı mətnlərin müəllifi Nigar Musəvidir.

Qeyd edək ki, "Naxçıvan" adlı albom ötən il bu qədim diyarımızın muxtariyyətinin təntənə ilə qeyd olunan 95 illiyinə qiymətli töhfə, geniş oxucu kütləsi üçün də nəfis ərməğandır.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Qarnizonu qoşunlarında yeni tədris ili başlayıb

***Yeni tədris ilinin başlaması ilə əlaqədar olaraq Naxçıvan Qarnizonu qoşunlarında döyüş hazırlığı üzrə sutkanın gecə və gündüz saatlarında, müxtəlif vaxtlarda həyəcan siqnalı ilə məşq etdirilib.***



2020-ci tədris ilində qarşıda duran əsas məqsəd və vəzifə muxtar respublikanın müdafiəsinin daha etibarlı və tam zəmanətlə təmin edilməsi, Naxçıvan Qarnizonu qoşunlarının qarşılıqlı əlaqəsinin koordinasiyasıdır. Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün yeni tədris ilinin ilk taktiki-sıra məşğələlərinin keçirilməsinə başlanılıb.

**Nəriman NƏCƏFOV**

## İdmançılarımızdan uğurlu nəticələr

*Bakı şəhər Hövsan Olimpiya İdman Kompleksində MMA, pankration və grappling idman növləri üzrə uşaq, yeniyetmə, gənc, böyüklər arasında açıq Bakı çempionatı keçirilib.*

Qızların da iştirak etdiyi çempionatda Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının idmançıları adlarını qaliblər sırasına yazdırıblar.




Belə ki, MMA və pankration üzrə 10-11 yaş qrupunda Röya Abdullayeva (34 kiloqram), Oğuz Məmmədli (30 kiloqram), 14-15 yaş qrupunda Uğur Çalbuyuk (38 kiloqram) birinci, Səid Abbaslı (30 kiloqram) ikinci olublar.

Grappling üzrə 10-11 yaş qrupunda Səid Abbaslı (30 kiloqram), 12-13 yaş qrupunda Röya Abdullayeva (35 kiloqram), Sadiq Kərimov (30 kiloqram) və İbrahim Əlizadə (38 kiloqram), 14-15 yaş qrupunda Vaqif Orucov (47 kiloqram), 16-17 yaş qrupunda isə Fərid Məhərrəmov (63 kiloqram) öz çəki dərəcələrində qalib adını qazanıblar. Mirməhəmməd Seyidov (59 kiloqram) və Miryusif Seyidbəyli (57 kiloqram) isə çempionatın gümüş və bürünc medallarına yiyələniblər.

Eyni zamanda Abşeron Olimpiya İdman Kompleksində keçirilən kadet, yeniyetmə və gənclər arasında kikboksinq üzrə "Qarabağ" klubunun açıq birinciliyinə də yekun vurulub. Birincilikdə Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının idmançılarından 10-13 yaş qrupunda Fərişad Süleymanlı birinci, Məmməd Məmmədov və Əli Nəsrullayev (8-10 yaş) üçüncü olublar.

İdmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 7 ünvanında yerləşən qeyri-yaşayış sahəsinin MH-0020851 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Əlincə məhəlləsi, bina 5a mənzil 17-də yaşayan Talıbov Famil Nadir oğlunun adına olan 6810 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Qaybalıyev Səfəralı Əbil oğluna məxsus Naxçıvan şəhəri, 49-cu məhəllə, ev 4-ə aid 13359 inventar nömrəli texniki pasport və MH 0007310 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 123